




# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 66 (23.228)

11 aprel 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellanın etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Argentina arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yaxşı səviyyədə olduğunu qeyd edib, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi və iqtisadi əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafında ölkələrimizin qarşılıqlı şəkildə səfirliklərinin fəaliyyət göstərməsinin rolunu vurğulayaraq Serxio Osvaldo Perez Qunellanın səfirlik fəaliyyəti dövründə onun Azərbaycanın müvafiq strukturlarının nümayəndələri ilə əməkdaşlığın genişlənməsi baxımından səmərəli görüşlər keçirəcəyinə əminliyini ifadə edib.

Serxio Osvaldo Perez Qunella səfir kimi fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, o cümlədən qarşılıqlı ticarət və investisiyanın genişləndirilməsindən ibarət olduğunu bildirib və bu istiqamətdə səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə energetika, biznes, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## İcmal

# Muxtar respublikada həyata keçirilən tədbirlər, görülən bütün işlər insan amilinə hesablanıb

## Ötən ayın ümumi mənzərəsi bunu bir daha aydın əks etdirir

***Ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsi istiqamətində gərgin, ardıcıl və səmərəli fəaliyyətin uğurlu nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası illərdir, sürətli sosial-iqtisadi yüksəliş dövrünü yaşayır. İnkişaf və yeniləşmə istiqamətində həyata keçirilən tədbirlər, vətənpərvərliklə aparılan quruculuq işləri, güclü nizam-intizam, idarəetmə sahəsində mövcud olan zəngin təcrübə 95 illiyini qeyd edən muxtar respublikada tarixi irəliləyişlərin əldə olunmasına yol açıb.***

Çoxşaxəli sosial-iqtisadi inkişafın nəticəsidir ki, diyarımızda xarici iqtisadi əlaqələrin coğrafiyası daha da genişlənib, ticarətin əmtəə strukturu təkmilləşib. Təsadüfi deyil ki, xarici ticarət tərəfdaşlarının da sayı hər gün artmaqdadır. Bu mənada, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün geniş imkanlar var. Araz Azad Ticarət və Sənaye Zonası qarşılıqlı əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır.

Martın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Nərimanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ali Məclisin Sədri muxtar respublikanın iş adamlarının Araz Azad Ticarət və Sənaye Zonası ilə əlaqələrinə diqqəti çəkib, muxtar respublika ilə sərhəddə iki azad ticarət və sənaye zonasının, eləcə də gömrük-keçid məntəqələrinin fəaliyyətinin mühüm əhəmiyyət daşıdığını bildirib. Ali Məclisin Sədri deyib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında həyata keçirilən səfərlər, iqtisadi, mədəni, təhsil və energetika sahələrindəki əlaqələr, hər iki tərəfdən dövlət qurumlarının qarşılıqlı fəaliyyəti və Araz çayından səmərəli istifadə uğurlu əməkdaşlığın nəticəsidir.

Ötən ay muxtariyyət tariximizin müstəqillik dövrünün böyük quruculuq salnamələrindən olan Kəngərli rayonunun yaranmasının 15 ili tamam oldu. Davamlı dövlət qayğısı və hər bir sakininin əməyi nəticəsində bu müddətdə rayonda əhəmiyyətli nailiyyətlər əldə olunub, inkişaf təmin edilib. Ötən dövrdə rayonun əsas inkişaf göstəricilərindən biri əhalisinin sayının 7 min nəfərə yaxın artaraq 32 minə çatmasıdır. Bundan başqa, rayonda sənaye məhsulu 16, kənd təsərrüfatı



məhsulu 7, investisiya qoyuluşu 50, rabitə xidmətlərinin həcmi 7 dəfə, əkin sahəsi isə 54 faiz artıb.

Bir vaxt boş çöllərdən ibarət olan bu ərazilər indi şəhər görkəminə qovuşub. Ötən dövrdə Kəngərli rayonunun bütün kəndləri və Qıvraq qəsəbəsi kompleks abadlaşıb, inzibati binalar tikilib, yeni yollar, körpülər salınıb, 2 meqavatlıq Günəş Elektrik Stansiyası qurulub, dünya əhəmiyyətli memarlıq nümunəsi olan Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilib.

Son illərin quruculuq ünvanları olan müasir sənaye kompleksi və sement zavodu da ölkəmizin mühüm sənaye obyektləri sırasındadır. Həm sənaye müəssisələrində, həm də rayonda qurulan onlarla kiçik istehsal və xidmət sahələrində yüzlərlə iş yeri açılıb. Müasir Kəngərli Azərbaycan dövlətinin bir rayonun timsalında iqtisadi gücünün və sosial dayanıqlığının, insan amilinə hərtərəfli qayğısının göstəricisidir. Qıvraq qəsəbəsində tikilən 7 mərtəbədən və 48 mənzildən ibarət yaşayış binası da insan amilinə, əhalinin firavan yaşamasına verilən dəyərin ifadəsidir.

Martın 7-də Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü qeyd olunub, Qıvraq qəsəbəsində yeni yaşayış binasının açılışı olub.

Açılış tədbirində iştirak edən Ali Məclisin Sədri rayonun yaranmasının 15-ci ildönümündə 48 mənzilli yeni yaşayış binasının istifadəyə verilməsini mühüm nailiyyət və rayonun yubileyinə layiqli töhfə olduğunu deyib, bu inkişafda əməyi olan bütün sakinlərə təşəkkür edib.

Muxtar respublikada sağlamlıq imkanları məhdud Azərbaycan Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, minik avtomobillərinin verilməsi, onların tibbi və sosial bərpası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu günədək şəhid ailələrinə və müvafiq kateqoriyadan olan şəxslərə 217 mənzil və fərdi yaşayış evləri, 462 nəfərə isə minik avtomobilləri təqdim edilib. Martın 7-də Qıvraq qəsəbəsindəki yeni yaşayış binasında hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş bir nəfərə üçotaqlı, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı əlil olmuş şəxsə isə ikiotaqlı mənzilin təqdim olunması da bu sahədə görülən işlərin davamıdır. Həmin gün Kəngərli rayon dini icmasına xidməti avtomobil də verilib.

Bu gün dünyada nümunəvi model kimi qəbul olunan ASAN xidmətin ölkəmizdə tətbiqi əhalinin rahatlığına xidmət edir. Muxtar respublikada əhaliyə göstərilən səyyar xidmət də ASAN xidmətin bir forması kimi sakinlər tərəfindən böyük razılıqla qarşılanır. Artıq muxtar respublikada Daxili İşlər Nazirliyində, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində səyyar xidmətlər fəaliyyət göstərir. Həmçinin əhaliyə internet üzərindən onlayn xidmət edilir. Bütün bunlar isə imkan verir ki, sakinlər vaxt itkisinə yol verməsin. Muxtar respublikada sığorta sahəsində də səyyar xidmətin yaradılmasına ehtiyac vardı. Bu baxımdan Dövlət Sığorta Agentliyinə 2 ədəd səyyar xidməti avtomobilin təqdim edilməsi, Kəngərli Rayon Dövlət Sığorta Agentliyinin yeni binasında müasir iş şəraitinin yaradılması bu sahədə fəaliyyətin hərtərəfli təşkili üçün görülən işlərin davamıdır.

Martın 7-də Ali Məclisin Sədri Kəngərli Rayon Dövlət Sığorta Agentliyinin yeni binasında yaradılan şəraitlə tanış olub, Dövlət Sığorta Agentliyinə 2 ədəd səyyar xidməti avtomobil təqdim edilib.

Muxtar respublikada aparılan quruculuq işləri Şərur şəhərini müasir görkəmə qovuşdurub. Şəhərdə yeni inzibati binaların, sosial obyektlərin, eləcə də yaşayış binalarının istifadəyə verilməsi, müasir içməli su və kanalizasiya sistemlərinin qurulması əhalinin rahat yaşayışına xidmət edir. Quruculuq tədbirləri 2019-cu ildə də davam etdiriləcək. Şərur şəhərinin avtomobil yolları yenidən qurulacaq, rayon Mədəniyyət Sarayı üçün yeni bina və müasir yaşayış kompleksi inşa olunacaqdır.

Martın 7-də Ali Məclisin Sədri Şərur şəhər avtomobil yollarının yenidən qurulması, Mədəniyyət Sarayının və yaşayış kompleksinin layihələrinə baxıb.

Qədim diyarımızın kəndlərində yeni sosial obyektlərin istifadəyə verilməsi ilə yanaşı, həm də müasir içməli su sistemləri qurulur, sakinlər 24 saat davamlı və keyfiyyətli su ilə təmin olunurlar. Bu sahədə görülən tədbirlərin tərkib hissəsi olaraq Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində də yeni içməli su sistemləri qurulacaq, rayonda sutəmizləyici qurğular kompleksi inşa olunacaqdır.

Martın 7-də Ali Məclisin Sədri həmin yaşayış məntəqələrində həyata keçiriləcək içməli su təchizatı sisteminin layihəsinə baxıb.

Bu gün muxtar respublika əhalisinin 52 faizə yaxını qadınlardır. Hazırda muxtar respublika qadınları istənilən sahələrdə uğurla fəaliyyət göstərirlər. Onların əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir.

Martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Respublikası təltiflərinin təqdimatı olub.

Ali Məclisin Sədri təltif olunan qadınları, eyni zamanda onların timsalında bütün muxtar respublika qadınlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, "Dövlət qulluğunda fərqlənməyə görə", 1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" və "Tərəqqi" medallarının, "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adının döş nişanlarını və vəsiqələrini, eləcə də hədiyyələri təqdim edib.

Yüksək döyüş qabiliyyətinə malik olan Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Yeni hərbi hissələr istifadəyə verilir, şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması diqqətdə saxlanılır. Bu sahədə görülən işlərin davamı olaraq martın 9-da Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib.

Ali Məclisin Sədri təlim mərkəzində yaradılan şəraitlə tanış olub, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirib, xidmətin təşkili ilə bağlı tapşırıqlar verib.

Naxçıvanda müalicə turizminin inkişafına da geniş diqqət yetirilir. Bu sahədəki imkanlardan səmərəli istifadə olunur, yeni müalicə mərkəzləri fəaliyyətə başlayır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksi yaradılacaqdır.

Martın 9-da Ali Məclisin Sədri tikinti aparılacaq əraziyə gəlib, kompleksin layihəsinə baxıb, tikinti işlərinə başlanılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının intensiv amillər hesabına artırılması üçün yeni innovativ texnologiyaların tətbiq edilməsi, dünyanın aparıcı ölkələrində istehsal olunan kənd


*Ardı 2-ci səhifədə*

təsərrüfatı texnikalarının istifadə olunması bu sahədə yeni-yeni nailiyyətlərin əldə edilməsinə yol açıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 2019-cu ildə tələbata uyğun olaraq 292 texnika və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Bu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması və Tədbirlər Planının təsdiq edilməsi də bu sahənin inkişafına səbəb olub. Hazırda Naxçıvanda 525 böyük ailə təsərrüfatı mövcuddur.

Martın 14-də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində muxtar respublikada yaztarla işlərinə hazırlıqla əlaqədar keçirilən səyyar müşavirədə də bu məsələlər qeyd olunub.

Ali Məclisin Sədri aid dövlət təşkilatları tərəfindən qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetiriləcəyinə və ailə təsərrüfatlarının formalaşmasında ciddi dönüşə nail olunacağına əminliyini bildirib, bu işdə hər kəsə uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxıb, aqrar sahədə ailə təsərrüfatlarının formalaşdırılması, onların tələbatına və sifarişlərinə uyğun texnikaların alınıb gətirilməsi, kənd təsərrüfatının inkişafında texnoloji yeniliklərin tətbiqi və səmərəli metodlardan istifadə ilə bağlı maarifləndirmə işlərinin aparılması barədə tapşırıqlar verib.

Bu gün sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçıları və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlıq imkanları məhdudlaşmış şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Görülən işlərin davamı olaraq martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 3 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim olunub.

Hər il Naxçıvan Muxtar Respublikasında Novruz bayramının quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunması ulu öndərimiz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir.

Martın 19-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilib.

Ali Məclisin Sədri ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak edib, Novruz bayramı və ilin axır çərşənbəsi olan Od çərşənbəsi münasibətilə muxtar respublika əhalisini, şəhid ailələrini, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrinin şəxsi heyətlərini təbrik edib, onlara xoş bayram ovqatı arzulayıb.

Ali Məclisin Sədri deyib: ***"Builki Novruz bayramını Naxçıvanın muxtariyyət qazanmasının 95 illiyi və muxtar respublikada elan olunmuş "Ailə təsərrüfatları ili"ndə qeyd edirik. Əminik ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət və bu yolun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi ölkəmizi və onun Naxçıvan Muxtar Respublikasını daha böyük tərəqqiyə qovuşduracaq, dövlət müstəqilliyimiz və sabitlik daha da möhkəmlənəcəkdir".***

Builki Novruz bayramında da musiqi kollektivlərinin və xalq sənətkarlarının iştirakı, Novruz adətlərimizin və milli dəyərlərimizin nümayişi böyük marağa səbəb olub.

Qədim diyarımızda dini-mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət yetirilir. Dini dəyərlərin mahiyyətinə uyğun təbliğ olunmasına, dini-tarixi abidələrin bərpası və yeni məscidlərin tikilməsinə mühüm əhəmiyyət verilir. Hazırda Naxçıvan şəhərində inşası davam etdirilən yeni məscid də mənəvi dəyərlərimizin yaşadılacağı məkan kimi diqqəti cəlb edir.

Martın 21-də Ali Məclisin Sədri məscidin tikintisi ilə maraqlanıb, tikinti işlərinin keyfiyyətinə diqqətin artırılması, yerli iqlim xüsusiyyətlərinin nəzərə alınması, məscidin fasadına və daxilinə İslam dəyərlərinə və milli memarlıq üslubuna uyğun tərtibat verilməsi barədə tapşırıqlar verib.

Əhalinin rahatlığının təmin olunmasında və turizm infrastrukturunun inkişafında vacib məsələlərdən biri də muxtar respublikada turistlərin tələbatına uyğun xidmət sahələrinin yaradılmasıdır. Naxçıvan şəhərində "Saat Meydanı" Kompleksi inşa olunması da bu məqsədə xidmət edir.

Martın 21-də Ali Məclisin Sədri kompleksdə olub, görülən işlərlə maraqlanıb, gənclərin və turistlərin maraqlarının nəzərə alınması, xidmət sahələrində kitab mütaliəsi üçün şəraitin yaradılması və yerli ərzaq məhsullarının satışının təşkil olunması barədə tapşırıqlar verib.

Bu gün muxtar respublikada sakinlərin təhlükəsiz və rahat yaşayışı diqqətdə saxlanılır, bu istiqamətdə ardıcıl tədbirlər görülür. Uzun illərdir, fəaliyyət göstərən və istismar müddətini başa vuran Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması da insanların təhlükəsizliyinin təmin olunmasına hesablanmaqla yanaşı, həm də fövqəladə halların qarşısının alınması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Martın 27-də hər iki obyekt yenidənqurmadan sonra istifadəyə verilib.

Ali Məclisin Sədri təhlükəsizlik tədbirlərinə ciddi əməl olunması, ərazidə yaşıllıqların salınması və muxtar respublikanın rayonlarında da qazdoldurma məntəqələrinin qurulması barədə tapşırıqlar verib.

1918-1920-ci illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı bəşəriyyət tarixində ən qanlı cinayətdir. Həmin dövrdə Naxçıvanda da ermənilər tərəfindən qırğınlar törədilib, yaşayış məntəqələri dağıdılıb. Buna baxmayaraq, naxçıvanlılar düşmən qarşısında mərdliklə dayanıb, mübarizə aparıb, düşməni darmadağın ediblər. Soyqırımı qurbanlarının xatirəsi bu gün də əziz tutulur, yad edilir.

Martın 30-da muxtar respublikada soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş ağacəkmə keçirilib.

Ali Məclisin Sədri soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş ağacəkmədə iştirak edib, yaşıllaşdırma tədbirlərinin davam etdirilməsi barədə tapşırıqlar verib.

***Bu gün Naxçıvan keçmişə hörmətlə, bu günümüzə diqqətlə, gələcəyə inamla sürətlə inkişaf edir, daha böyük uğurlara doğru irəliləyir. İnkişafın mərkəzində isə insan amili dayanır. Muxtar respublikanın inkişafı ölkə başçısının müəyyən etdiyi "Güclü dövlət, yüksək rifah" strategiyasına əsaslanır. Həyata keçirilən bu strategiya muxtar respublikada ayrı-ayrı sosial qrupların həyat şəraitinin yüksəldilməsinə, iqtisadi stimulun, insan amilinə diqqətin daha da artmasına etibarlı zəmin yaradan konseptual inkişaf yoluna çevrilib. Bunun nəticəsidir ki, bu gün qədim diyarda sosial proqramlar uğurla davam etdirilir, əhalinin rifah halı gündən-günə daha da yaxşılaşır. Ötən 24 ildə qədim diyarın yaradılan və yazılan tarixi də məhz belə işıqlı ideyaya söykənib, Naxçıvandakı sabitlik, əmin-amanlıq, birlik, həmrəylik, nizam-intizam və davamlı inkişaf nümunəyə çevrilib. Bu baxımdan ötən ay da muxtar respublikanın inkişaf tarixinə yeni-yeni töhfələr bəxş edib.***

**Rauf KƏNGƏRLİ**

## Kitab təqdimatı keçirilib



*Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Pedaqoji fikir tarixindən" kitabının təqdimatı keçirilib.*

Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov son illər Naxçıvan Muxtar Respublikasında təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər, imzalanan dövlət sənədlərinin əhəmiyyətindən danışıb. Qeyd edilib ki, bu işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən 10 min tirajla "Pedaqoji fikir tarixindən" kitabı nəşr etdirilib. Kitabların 8 mindən çoxu muxtar respublika ümumtəhsil məktəblərinin müəllimlərinə və məktəb kitabxanalarına verilib.

Qeyd olunub ki, elmi-pedaqoji əhəmiyyəti, yeni nəslin təlim-tərbiyəsində, eləcə də gənc nəsildə vətənpərvərliyin formalaşmasında mühüm rolu nəzərə alınaraq "Pedaqoji fikir tarixindən" kitabı "Oxunması zəruri olan kitabların Siyahısı"na əlavə edilib.

Tədbirdə Naxçıvan Qızlar Liseyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Aidə Allahverdiyevanın, Naxçıvan Qarnizonu tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Sevinc Mirzəyevanın və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Elmihəyat Səfərovanın çıxışları dinlənilib.

Çıxış edənlər kitabın ərsəyə gəlməsi və nəşrinə göstərdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra "Pedaqoji fikir tarixindən" kitabından görkəmli pedaqoqlara aid seçmələr oxunub.

Sonda Məhəmməd Tağı Sidqiyə həsr olunmuş "Xalqın müəllimi" sənədli filminin nümayişi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Tacikistan səfiri Naxçıvandan zəngin təəssüratlarla qayıdıb

***Xəbər verdiyimiz kimi, Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rüstəm Soli 8-9 aprel tarixlərində muxtar respublikamızda səfərdə olub. Səfərinin sonunda qonaqdan Naxçıvan təəssüratlarını öyrəndik:***



– Bu, mənim Naxçıvan Muxtar Respublikasına ilk səfərim olsa da, özümü ölkəmizdəki kimi hiss etdim. Xüsusən burada dəniz səviyyəsindən 2 min metr yüksəklikdəki qarlı ərazilərə səyahət zamanı Tacikistanda olduğu kimi, sanki dünyanın zirvəsinə qalxdığıma bir daha inandım. Odur ki, təəssüratlarım çox möhtəşəmdir. Təbiət Naxçıvana hər cür gözəllik bəxş edib. Gəzib-gördüyüm yerlərdəki səliqə-sahman, təmizlik, insanların qonaqpərvərliyi mənim ikigünlük Naxçıvan səfərimdən aldığım təəssüratların ən gözəlidir. Ayrıca olaraq Naxçıvan Muxtar Respublikasında keçirdiyim çox mühüm görüşlər və tanış olduğum yerlər bu gözəl diyara səfərimin məhsuldar olmasına səbəb oldu.

Onu da qeyd edim ki, muxtar respublikanızın böyük iqtisadi-mədəni potensialı vardır. Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq müddətində belə bir qənaətə gəldim: – Naxçıvanda istehsal olunan məhsullar buradakı həyat səviyyəsindən, əhalinin yaşayış standartlarının yüksək olmasından xəbər verir. Xüsusən Naxçıvanın su elektrik stansiyalarının tikilməsi işində qazandığı təcrübə, enerji və ərzaq təhlükəsizliyini təmin etməsi sahəsində əldə etdiyi nailiyyətlər diqqətimi çəkdi. Bildiyiniz kimi, Tacikistan da yüksək şirin su və hidroenerji potensialına malikdir və Naxçıvanın bu resurslardan istifadə sahəsində qazandığı təcrübə, bu mənada, maraqlıdır. Naxçıvandakı Günəş Elektrik Stansiyası da bu diyarın yüksək enerji potensialından xəbər verir.

Səfir bildirib ki, Naxçıvan şirkətlərinin istehsalı olan bir sıra məhsullar bizim ölkəmizdə də alıcılar tapa bilər. Odur ki, biz müvafiq qurumlarla birgə təşkil olunmuş dəyirmi masada gələcəkdə iqtisadi əməkdaşlığımızın perspektivləri haqda fikir mübadiləsi apardıq. Məsələn, Tacikistan bazarında Naxçıvan mürəbbələrinə və meyvə şirələrinə çox yüksək tələbat ola bilər. Ona görə də naxçıvanlı sahibkarlarla bu məhsulların birgə istehsalı üzrə kommersiya müqavilələrinin bağlanılması fikri yaxşı ideya kimi diqqətçəkən oldu. Bunlardan başqa, Naxçıvanın Duzdağına xeyli sayda Tacikistan vətəndaşının da müalicəyə gələ bilməsi üçün təkliflər səsləndi.

Bu səfərimdə, şükürlər ki, bütün müsəlman aləmi üçün müqəddəs sayılan Əshabi-Kəhfi ziyarət etmək mənə də nəsib oldu. Ümumiyyətlə, tacikistanlıların Azərbaycandakı turizm-rekreasiya məkanlarına marağı çoxdur. Gələcəkdə Düşənbə ilə Bakı arasında birbaşa hava yolu əlaqəsinin açılması ilə bizim ölkədən də Naxçıvana turistlər rahatlıqla gələ biləcəklər. O zaman Naxçıvan duzunun möcüzəsini, Naxçıvandakı mineral suların şəfalı gücünü taciklərə də tanıtmaq, dərmansız müalicə üçün onların Naxçıvana gəlməsini təşkil etmək mümkün olacaq.

**Əli CABBAROV**

## Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında hərbi hissənin yaranmasının 24-cü ildönümü qeyd olunub



Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında hərbi hissənin yaranmasının 24-cü ildönümünə həsr olunmuş mərasimə hazırlıq barədə raport verildikdən sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Mərasim ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Briqada komandiri, general-mayor Səlim Niftalıyev hərbi hissənin şəxsi heyətini təbrik edərək bildirib ki, Daxili Qoşunların yüksək döyüş hazırlığına və ciddi nizam-intizama malik hərbi bölmə kimi formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi şəxsiyyətin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Daxili Qoşunlar ölkədə sabitliyin və daxili təhlükəsizliyin vacib qarantına çevrilib və bu sahədə qanun tərəfindən müəyyən edilən tapşırıqların öhdəsindən layiqincə gəlir. 24 il əvvəl yaradılmış Daxili Qoşunların Naxçıvan taboru mühüm inkişaf mərhələsi keçərək hərbi hissəyə çevrilib.

Briqada komandiri qeyd edib ki, ötən dövr ərzində hərbi hissənin ərazisində geniş quruculuq işləri aparılıb, müasir infrastruktur yaradılıb, maddi-texniki bazanın yaxşılaşdırılması sahəsində böyük dəyişikliyə nail olunub, hərbi hissə ən müasir silahlar, texnika və radiorabitə sistemi ilə təchiz edilib.

Sonra hərbi hissənin zabiti, kapitan Orxan Seyidov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərovun və Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Fariz Bağırovun hərbi hissənin yaranma günü münasibətilə şəxsi heyətə təbriklərini çatdırıb.

Daha sonra Naxçıvan Muxtar Respublikasının daxili işlər nazirinin və hərbi hissə komandirinin əmri ilə xidməti dövrlərində fərqlənən hərbi qulluqçular vaxtından əvvəl hərbi rütbələrin verilməsi, fəxri fərman, təşəkkür, pul mükafatı və qiymətli hədiyyələr ilə mükafatlandırılıblar.

Mərasim şəxsi heyətin təntənəli keçidi, ayrı yerləşən əməliyyat taborunun xüsusi vasitələrin tətbiqi bölməsinin, xüsusi vasitələrin tətbiqi dəstəsinin və xüsusi təyinatlı dəstənin şəxsi heyətinin nümunəvi çıxışları ilə sona çatıb.

**Pərviz HACILI**



*Qədim tarixə, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan mürəkkəb, eyni zamanda şərəfli inkişaf və tərəqqi yolu keçib. Bu yurd yeri həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşadıb, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynayıb. Tanrının bir bəxşişi olan Naxçıvan Şərqlə Qərbin qovşağındadır. İqlimi, təbiəti, coğrafi mövqeyi ilə bu diyar həmişə uzun illərboyu müxtəlif geostrateji və geosiyasi maraqların ən çox kəsişdiyi nöqtələrdən biri olub. Hələ XX əsrin əvvəllərində sadalanan bu səbəblər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın muxtariyyət statusu qazanmasını vacib amilə çevirib. Tarixə nəzər salsaq, görərik ki, 1920-ci il aprelin 27-də bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra Naxçıvan diyarında ermənilər daha da fəallaşıb, qədim yurdun Ermənistana birləşdirilməsi üçün cəhdlər göstərilib. Həmin dövrdə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələlərin nizama salınması məqsədilə Moskva müqaviləsinin ardınca 1921-ci il oktyabrın 30-da Qars müqaviləsinin imzalanması ilə Naxçıvanın sərhədləri bir daha dəqiqləşdirilib.*

**Naxçıvan Muxtar Respublikası – 95**

# Maddi-mənəvi sərvətlər xəzinəmiz olan müasir muzeylərimiz muxtariyyətimizin müstəqillik illərinin töhfələridir

Belə bir deyim var ki, tarix heç nəyi unutmur. Naxçıvanın muxtariyyət salnaməsi xalqımızın daim qürurla xatırladığı bir tarixi nailiyyətdir. "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı da bu baxımdan əhəmiyyətli dövlət sənədidir.

Bu gün tariximizi öyrənmək üçün üz tutduğumuz yerlərdən biri də muzeylərimizdir. Muzey tarixi, maddi və mənəvi dəyərlərin saxlanıldığı, qorunduğu və öyrənildiyi elm, maarifləndirmə müəssisəsidir. Həmin müəssisələrdə saxlanılan hər bir eksponat xalqın çoxəsrlik tarixini, qədimliyini, milliliyini əks etdirir. Bu xəzinələr Naxçıvanımızın muxtariyyət salnaməsini günümüzə qədər yaşadır, qoruyur.

Ulu öndərimiz Heydər Əliyevin ölkəmizdə birinci dəfə siyasi rəhbərliyə gəlişindən sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da muzeylərin şəbəkəsi genişləndirilib və müxtəlif profilli muzeylər yaradılıb.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, mədəniyyətin və incəsənətin inkişafında əldə edilən uğurların da əsasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu inkişaf və tərəqqi strategiyası dayanıb. Bu illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin mühafizəsi və bərpası, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi və yubileylərinin qeyd olunması sahəsində çoxsaylı fərman və sərəncam imzalanıb.

Təkcə onu qeyd etmək kifayətdir ki, əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey vardısa, hazırda qədim diyarımızda 29 müxtəlif profilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Bir sıra muzeylər üçün yeni binalar inşa olunub, bəzi muzey binaları təmir edilib, onların ekspozisiyaları yenidən qurulub. Ötən illər ərzində Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Bəhruz Kəngərli Muzeyi, Xatirə Muzeyi, Şahtaxtinskilər Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Gəmiqaya Muzeyi, Xalq şairi Məmməd Arazın və görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyləri, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi,



Naxçıvan Duz Muzeyi yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamı ilə həm abidə bərpa edilib, həm də burada yeni muzey yaradılıb.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq həmin mədəniyyət müəssisələrinə kollektiv gedişlər təşkil edilir. Muzeyləri ziyarət edən həm muxtar respublika sakinlərinin, həm də xarici ölkə vətəndaşlarının sayı ildən ilə daha da artır. Belə ki, ötən il muzeyləri, ümumilikdə, 592 min 683 tamaşaçı ziyarət edib. Onlardan 178 min 469 nəfəri əcnəbidir.

Muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika sakinləri yaxından iştirak edirlər. Ötən il muxtar respublika muzeylərinə 1564 yeni eksponat daxil olub. Muzeylərimizin ekspozisiyasında nümayiş etdirilən eksponatlar artdıqca buraya gələn ziyarətçilərin sayı da artır.

Muxtar respublikamızda muzeyşünaslıq işinin inkişaf etdirilməsində mütəxəssis hazırlığı da diqqətdə saxlanılıb. 2012-ci ildə Naxçıvan Dövlət Universitetində Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisasının açılması bu sahə üzrə yerli kadr hazırlığına da əhəmiyyətli təsir göstərib. Fərəhləndirici haldır ki, muzeylərimizdə olarkən burada çalışan peşəkar əməkdaşların məhz həmin ixtisası bitirən gənclər olmasına bir daha şahidlik etdik. Ötən il Bəhruz Kəngərli Muzeyinin, Naxçıvan Duz Muzeyinin, Qarabağlar Türbə Kompleksinin saytlarının fəaliyyətə başlaması isə qədim diyarımızın tarixinin, zəngin maddi-mədəni irsimizin beynəlxalq səviyyədə virtual şəkildə təbliği baxımından mühüm əhəmiyyət kəsb edən hadisədir.

Bu gün Naxçıvanda fəaliyyət göstərən muzeylərdə bu qədim diyarın müxtəlif tarixi dövrləri ilə yanaşı, muxtariyyət tariximizi də özündə əks etdirən eksponatlar nümayiş olunur. Bu da doğma Naxçıvanımızın taleyini, Azərbaycanın ayrılmaz ərazisi kimi mövcudluğunu təsdiqləyən, inkişafına yol açan muxtariyyət tariximizin yaşadılması, təbliği baxımından təqdirəlayiq haldır.

Bəs bu gün muzeylərimizdə muxtariyyət tariximizlə bağlı hansı eksponatlar nümayiş etdirilir? Bunun üçün ilk üz tutduğumuz ünvan Heydər Əliyev Muzeyi oldu. Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev bildirdi ki, ekspozisiyada 1974-cü ildə muxtariyyətimizin 50 illik yubileyində ümummilli liderimizin Naxçıvana səfərinə aid fotoşəkillər və keçirilən yığıncağın protokolu nümayiş olunur. Muzeydə digər diqqətçəkən eksponatlardan biri də 1999-cu ildə muxtariyyətimizin 75-ci ildönümündə ulu öndərin Naxçıvana səfərini əks etdirən tarixi fotoşəkillərdir. Keçirilən yubiley tədbirlərində ulu öndərin Kazım Qarabəkir Paşa məscidinin, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Cəlil Məmmədquluzadənin ev-muzeyinin və başqa yeni müəssisələrin açılışında iştirakı fotolarda əks olunub.

Muxtariyyətimizin yaşıdı, öz eksponatları ilə zəngin Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasında tərtib olunmuş "Naxçıvan Muxtar Respublikası – 95" adlı sərgidə də Naxçıvanın muxtariyyət tarixindən bəhs edilir. Sərgidə 129 eksponat nümayiş olunur. Onların arasında Naxçıvana muxtariyyət statusunun verilməsinə dair sənədlər, o dövrdə qəbul edilmiş Naxçıvanın konstitusiyaları, xəritələr, muxtariyyətin müstəqillik illərində Naxçıvanın sosial-iqtisadi və mədəni inkişafına dair məlumatlar, son 20 ildə muxtariyyət tarixi ilə bağlı nəşr olunmuş çap məhsulları ilə yanaşı, bu dövrdə Naxçıvanda həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq tədbirlərini əks etdirən fotoşəkillər və digər materiallar nümayiş olunur.

Eksponatları müşahidə etdikcə muxtar respublikamızın tarixi göz önündə bir daha canlanır. Muzeyin bələdçisi Xavər Nuri bildirdi ki, həmin sərgi vasitəsilə muzeyə gələn tamaşaçılara Naxçıvanın muxtariyyət tarixi barədə ətraflı məlumatlar verilir.

Xalqımızın əməksevər qadınlarının göz nuru olan, ilmələrin, naxışlarımızın qorunub saxlandığı Naxçıvan Dövlət Xalça Muzeyində də muxtariyyət tariximizlə bağlı xalçalar tamaşaçılara təqdim edilir. Muzey bələdçisi Səadət Vəliyeva bir xalça haqqında danışaraq bildirdi ki, bu qiymətli xalq sənəti nümunəsi 1949-cu ildə muxtariyyətimizin 25-ci ildönümündə Qarabağ xalçaçıları tərəfindən toxunub və hədiyyə olunub. Xalçanın üzərində "Naxçıvan – 25" sözləri yazılıb. Bu xalçanı Azərbaycan xalqı arasında birliyin, bərabərliyin simvolu kimi xarakterizə etmək olar və mən əminəm ki, çox da uzaq olmayan bir tarixdə Naxçıvan xalçaçıları tərəfindən Qarabağın azad olunması münasibətilə belə bir xalça toxunub doğma Qarabağımıza hədiyyə ediləcəkdir.

Muzeyin bələdçisi onu da bildirdi ki, muxtariyyətin 60-cı ildönümü ilə bağlı 1984-cü ildə Naxçıvan xalçaçıları tərəfindən toxunan bir xalça da eksponatlar arasında nümayiş olunur. Xalçanın üzərində Naxçıvanda yerləşən tarixi abidələrin, Araz Su-Elektrik Stansiyasının, Aza körpüsünün və Haçadağın təsvirləri əks edilib. Digər eksponatlardan biri də muxtariyyətin 90-cı ildönümündə Naxçıvan xalçaçıları tərəfindən toxunulan, üzərində 8 guşəli ulduzun təsvir olunduğu xalçadır. Bu xalça xalqımızın müstəqilliyini, azadlığını özündə əks etdirir.

Muxtariyyət tariximizi özündə yaşadan muzeylərimizdən biri də şəhərimizdəki Dövlət Bayrağı Meydanı və Muzeyidir. Hamımıza məlumdur ki, Naxçıvan özünün dövlətçilik atributlarına malik bir diyardır. 1924-cü ildə qəbul edilmiş "Naxçıvan Sovet Sosialist Respublikası haqqında Əsasnamə" və








Naxçıvan Muxtar Respublikasının 1926-cı, 1937-ci və 1978-ci il konstitusiyalarında dövlət gerbi və bayrağı haqqında müddəalar buradakı eksponatlarda öz əksini tapıb. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı və Gerbi ilə yanaşı, Dövlət Himni də təsbit edilib. Muzeyə baxış zamanı burada nümayiş olunan eksponatlardan müxtəlif dövrlərdə dövlət atributu kimi qəbul edilmiş bayraqlar ilk baxışda diqqəti cəlb edir. Öyrəndik ki, Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin bayrağı qəbul edilərkən Naxçıvana hələ muxtariyyət statusu verilməmişdi. Latın əlifbasının ərəb əlifbası ilə eyni hüquqda işlədilməsi haqqında Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti və Azərbaycan SSR-in ilk dövlət bayrağının təsviri əsasında 1922-ci il dekabrın 30-da Naxçıvan SSR-in ilk bayrağı təsdiq edilib. Azərbaycan SSR-in 1927-ci ildə qəbul edilmiş Konstitusiyasına əsasən Naxçıvan Sosialist Şuralar Cümhuriyyəti bayrağının üzərindəki "İctimai" sözü "Sosialist" sözü ilə əvəz olunaraq 1937-ci il sentyabrın 18-də qəbul edilən Konstitusiyasında Naxçıvan Avtonom Sosialist Respublikasının bayrağı olaraq qəbul olunub. Muzeydə nümayiş etdirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Əsasnaməsi və muxtariyyət dövründə qəbul olunan konstitusiyalar, eləcə də ölkəmizin müstəqilliyi dövründə nəşr edilmiş "Naxçıvan tarixi atlası", "Gümrü, Moskva və Qars müqavilələri", "Naxçıvan tarixi" çoxcildliyi, "Naxçıvan Muxtar Respublikasının yubileyləri" kitabları Naxçıvanın muxtariyyət tarixini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərar və həmin tarixi günə aid fotoşəkillər də nümayiş olunur.

Bəli, ulu öndər Heydər Əliyevin dediyi kimi: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əlindən getmiş başqa torpaqlarının qaytarılması üçün xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".*** Bunun üçün dünənimizi bu günə, bu günümüzü isə sabaha bağlayan tariximizi dərindən öyrənməli, Naxçıvanın çətin, məsuliyyətli, ancaq şərəfli muxtariyyət tarixi dövrünü dərindən mənimsəməli, təbliğ etməliyik. Məhz buna görə də muxtar respublikamızda tariximizin saxlanc yerləri olan muzeylərimiz hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

*Son 30 ilə yaxın bir dövrdə yaradılan yeni muzeylər onların fəaliyyətlərinin və strukturlarının dünya standartları səviyyəsində təşkili, ən əsası isə yerli sakinlərdə və çoxsaylı turistlərdə bu mədəniyyət müəssisələrinə maraq yaradılması, ümumilikdə, Azərbaycanda muzeyşünaslıq işinə layiqli töhfə sayıla bilər.*

**Pərviz HACILI**

***Bu məqalə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Hikmət xəzinəsindən

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı muxtar respublikada mütaliəni ümumi ictimai zərurətə çevirməsi ilə səciyyələnir. Bu sərəncamla mütaliəsi tövsiyə olunan əsərlərin hər biri böyüməkdə olan nəsillərin soykökə bağlı, yetkin siyasi dünyagörüşə malik mükəmməl şəxsiyyət kimi yetişməsinə xidmət edən bir hikmət xəzinəsi, fəzilətin açarıdır. Sərəncamda nəzərdə tutulduğu kimi, oxunması zəruri olan kitabların siyahısının zənginləşdirilməsi işi daim diqqətdə saxlanılır. Bu siyahıya yeniyetmələrin, gənclərin milli dəyərlər, dövlətçiliyə sədaqət və vətənpərvərlik ruhunda formalaşmasına mühüm təsir göstərəcək yeni əsərlər daxil edilir.***

***"Şərq qapısı" qəzeti də ötən müddət ərzində oxunması zəruri olan kitablarla bağlı müntəzəm resenziyalar dərc etməklə bu əsərlərin mətbu yolla kütləvi təbliğinə çalışıb. Bununla yanaşı, "Hikmət xəzinəsindən" adlı yeni rubrikamız vasitəsilə həmin əsərlərdən nümunələri də oxucularımıza vaxtaşırı təqdim etmək qərarına gəldik. İlk olaraq mütərəqqi maarifçilik ideyaları və fəaliyyəti ilə xalq müəllimi kimi şöhrət qazanan, Azərbaycan maarifçi-realist ədəbiyyatının yaradıcılarından biri olan Məhəmməd Tağı Sidqinin ibrətamiz, müdrik kəlamları ilə sizləri tanış edirik. Bununla həm də Naxçıvanın zəngin maarifçilik ənənələrini və həmin ənənələrin bu gün də müasir müstəvidə inkişaf etdirilməsini diqqətə çatdırmaq istədik. Sizə təqdim edəcəyimiz "Əzbər ediləcək hikmətli sözlər" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən bu yaxınlarda kütləvi tirajla nəşr olunmuş, elmi-pedaqoji əhəmiyyətinə, təlim-tərbiyə prosesində mühüm roluna görə "Oxunması zəruri olan kitabların Siyahısı"na əlavə edilmiş "Pedaqoji fikir tarixindən" kitabındandır.***

# Əzbər ediləcək hikmətli sözlər




1) İnsan əvvəl cəhlinin və bilməzliyinin dərəcəsini bilsə, ondan sonra bildiyini təkmil və bilmədiyinin təhsilinə səy və diqqət eyləsə, çox şey öyrənər.

2) Dünyada insanın əvvəlinci vəzifəsi elm təhsil etməkdir. Elmsiz insan ruhsuz cism kimidir. Elmə talib olan alim hesab olunur. Amma özünü elmə malik bilən cahil sayılır.

3) Dünyada hər elmdən artıq elmi-əxlaqda çalışmaq insan üçün lazımlı bir şeydir. Çünki heyvanların cinsi elmi-heyvanat deyilən elm ilə bilinsə, insanların da yaxşısı elmi-əxlaq ilə məlum olur.

4) İnsana ömrü olduqca yemək və içmək nə qədər lazım olsa, elm və tərbiyə və əxlaqi-həsənə təhsil etmək o qədər lazımdır. Amma insanın insaniyyəti oxumaqla və heyvaniyyəti yemək ilə qaimdir. Pəs dirilik yeməkdən ötrü deyil, bəlkə, yemək dirilikdən ötrü lazımdır.

5) Meyvəli ağaca daş atan çox olduğu kimi, elm və mərifət sahibinə də zəhmət və əziyyət verən çox olur. Necə ki, meyvəli ağaca daş vuranda yemiş verər, elm və tərbiyə sahibi olan kimsəyə də hər kəs ilə müdara və rəftar eyləməlidir.

6) İnsanın elmi çoxaldıqca cəhli azalır. Cahil olan kimsə vaxtsız xoruza bənzər. Cahilə söz qandırmaq dəvəyə xəndək atılmaqdan çətindir.

7) Təzə əkilən tənəklərə və ağaclara su vermək nə qədər lazım olsa, uşaqlara da təlim və tərbiyə kiçiklikdə o qədər lazımdır.

8) Dünyada elmi təhsil etmək çətin olsa da, yaddan çıxarmağı çox asandır. Amma cəhalət və nadanlıq təhsili nə qədər asan olsa, zayil olmağı çox çətindir.

9) Aqil ata-ana övladını elmə və ədəbə rağib edəndir. Amma balasını bikar və əziz saxlayan adam övladının düşmənidir.

10) Ata-anasının gözəl-gözəl nəsihətinə qulaq asmayan uşaq axırda peşiman olur. Nəsihətin qiyməti cavahirin qiymətindən artıqdır. Amma qədrini bilən gərək.

11) İnsanın vücudunun səmərəsi və faydası elm ilə hasil olur. Elm və mərifətsiz insan meyvəsiz ağaca bənzər.

12) Elmin ləzzətin anlamaq insan üçün bir böyük səadətdir. Amma səadət də bir xəzinədir ki, səy və qeyrət onun kilididir (açarıdır).

13) Fəzilətdən, ibadətdən, elm və mərifətdən məhrum olan adamlar üçün ölüm bir böyük nemətdir. Çalışmaq istəməyən insan yaşamağa layiq deyil.

14) Tənbəllik və kəsalət insanın vücudunda bir böyük mərəzdir. Odur ki, işləyən dəmir parıldar, işləməyən dəmir paslanır. Tənbəl adam badam yemək istər. Amma sındırmağının zəhmətindən qaçar.

15) Zaye olan vaxtın və fövt olan fürsətin iadə olunmadığı məlumdur. İnsanın ömrünün saniyələri dəqiqələrindən və dəqiqələri saatlarından, saatları həftə və ay və illərindən və illəri tamam ömründən hesab olunur. Buna görə insan heç bir vaxtını bihudə keçirtməsin gərək.

16) Səfahətin əvvəlinci dərəcəsi insanın özünü ağıllı bilməsidir. Çox səslənən təbilin içi hava ilə doludur. İnsanın bildiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir.

17) İnsan böyük və elmli adamların kamalatına məmnuniyyət nəzərilə baxıb təhsin və qəbul eyləməlidir. İnsanın bir az nəqsi (nöqsani) kamalatına xələl verməz. Necə ki, günün üzündəki ləkələr onun nuruna ziyan verməz.

18) Pisliyi unudub, yaxşılığı yadda saxlamaq lazımdır.

Bir adama yaxşılıq edib əvəzini gözləmək bu gün əkdiyi ağacı sabah çıxarıb atmaq kimidir.

19) Dünyada yaxşılıqdan gözəl şey yoxdur. Amma yaxşılığa layiq olanları axtarıb tapmaq ondan da yaxşıdır.

20) Nəsihət vermək nə qədər asan olsa, qəbul eyləmək o qədər çətindir.

21) Qərəzkar adamların sözü kömürə bənzər. Dəydiyi yeri yandırmasa da, qaraldır.

22) Vücudu xəstə olanlar təbibə, ruhi xəstə olanlar həbibə möhtacdır.

**Məhəmməd Tağı Sidqi**

# Kikboksinq üzrə muxtar respublika birinciliyi keçirilib



***"Naxçıvan Muxtar Respublikası – 95" devizi altında kikboksinq üzrə kadetlərarası muxtar respublika birinciliyi keçirilib.***

Şərur rayonunda keçirilən birincilikdə idmançılar 3 yaş qrupu üzrə 18 çəki dərəcəsində rinqə çıxıblar.

Birinciliyi keçirməkdə məqsəd muxtar respublikada kikboksinq idman növünü inkişaf etdirmək, rayon və Naxçıvan şəhərində fəaliyyət göstərən bölmələrin işinə qiymət vermək və ölkə birinciliyində muxtar respublikamızı təmsil edəcək heyəti formalaşdırmaqdan ibarət olub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi birincilikdə 60-dan çox idmançı mübarizə aparıb. Açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov və Kikboksinq Federasiyasının sədr müavini Tahir Məmmədli bildiriblər ki, bu gün muxtar respublikada idmanın kütləviliyinə nail olunması, xüsusilə uşaq və gənclərin idmana cəlb edilməsi üçün müasir idman infrastrukturu yaradılıb, maddi-texniki baza gücləndirilib, idmanın hərtərəfli inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilib.

Yarışın yekun nəticəsinə əsasən 8-10 yaşlı idmançılar arasında Uğur Məmmədli (22 kiloqram, Şərur), Fərman Bağırov (24 kiloqram), Sadiq Kərimov (26 kiloqram), Oğuz Məmmədli (28 kiloqram) və Səid Abbaslı (30 kiloqram, hamısı Turan Döyüş Klubu) hamıdan güclü olublar.

10-13 yaşa qədər (kik-layt) idmançıların mübarizəsində qalib adını Elton Fərzəliyev (28 kiloqram, Culfa), Sinan Kazımov (32 kiloqram, Şərur), Hüseyn Həsənov (37 kiloqram, Şərur), Raiq Rəcəbli (42 kiloqram, Naxçıvan), Səhət Əsədov (47 kiloqram, Naxçıvan) və Zeynalabdin Musayev (+47 kiloqram, Şərur) qazanıblar.

Azər Zamanlı (39 kiloqram, Naxçıvan), Şəmsəddin Əliyev (42 kiloqram, Naxçıvan), İsmayıl Yaqubov (47 kiloqram, Naxçıvan), Elton Səfərli (52 kiloqram, Kəngərli), Fərid Məhərrəmov (57 kiloqram, Turan Döyüş Klubu), Onur Əlizadə (63 kiloqram, Naxçıvan) və İldırım Tarverdiyev (69 kiloqram, Naxçıvan) isə 13-15 yaşlı kadetlər arasında muxtar respublika birinciliyinin qalibi olublar.

Qızların mübarizəsində Duyğu Hüseynova (Naxçıvan) 51 kiloqram çəki dərəcəsində qalib adını qazanıb.

Sonda qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

# Tələbələrlə görüş



*AMEA Naxçıvan Bölməsində Naxçıvan Dövlət Universitetinin Tarix ixtisasının I kurs tələbələri ilə görüş keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar keçirilən görüşdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisaslarının hamiliyə götürülməsi ilə əlaqədar ekspert qrupunun yaradıldığını diqqətə çatdırıb.

Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında elmə, təhsilə göstərilən diqqət və qayğıdan danışan İsmayıl Hacıyev tələbələrə bölmənin yaranma tarixi, strukturu, aparılan tədqiqat işləri barədə məlumat verib. O, tələbələrlə müntəzəm görüşlərin keçiriləcəyini qeyd edib, onların gələcəkdə bir mütəxəssis kimi formalaşmalarına bölmə əməkdaşlarının dəstək verəcəyini bildirib, tələbələrə elmi jurnallar hədiyyə edib.

Sonra çıxış edən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli rəhbərlik etdiyi müəssisə tərəfindən Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və epiqrafikasına dair araşdırmaların aparıldığını deyib, görülən işlər barədə danışıb.

Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

Görüş çərçivəsində tələbələr bölmənin Arxeologiya və etnoqrafiya Muzeyində olub, 2006-2018-ci illərdə muxtar respublikanın müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələrinə baxış keçiriblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Sığorta işinin təşkili müzakirə olunub



*Dünən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birlikdə muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov tədbiri açaraq muxtar respublikada avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası ilə bağlı görülmüş işlərdən danışıb.

Tədbirdə Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək cəmiyyətin ümumi inkişafının nəticəsi kimi sığortanın əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası da vacib məsələ kimi qarşıya qoyulub. O, muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti olduğunu bildirib. Qeyd edib ki, ötən müddət ərzində Dövlət Yol Polisi ilə birgə aparılmış işlər nəticəsində muxtar respublikada avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin sığorta etdirilməsi sahəsində də müəyyən işlər görülmüşdür. Belə ki, 2019-cu ilin birinci rübü ərzində muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 4722 müqavilə bağlanılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 328 ədəd çoxdur. Baş vermiş yol-nəqliyyat hadisələrindən dəymiş zərərlərin ödənilməsində sığortanın mühüm rola malik olduğunu bildirən Hikmət Əsgərov onu da vurğulayıb ki, mülki məsuliyyətini sığorta etdirmiş nəqliyyat vasitəsi sahibləri yol-nəqliyyat hadisəsi baş verdiyi halda, üçüncü şəxslərə dəymiş zərər məbləği dövlət sığorta orqanları tərəfindən ödənilir. Qeyd olunub ki, sığorta işinin daha da inkişaf etdirilməsinə muxtar respublika rəhbəri daim diqqət və qayğı göstərir. Belə ki, mart ayında sığorta işinin daha da təkmilləşdirilməsi üçün Dövlət Baş Sığorta Agentliyinə vətəndaşlara səyyar xidmət göstərilməsi məqsədilə 2 mikroavtobus təqdim olunub və onlar bütün informasiya-kommunikasiya vasitələri ilə təmin ediliblər. Bu da xidmət mədəniyyətinin artırılmasında və vətəndaşlara sığorta xidmətinin göstərilməsində mühüm stimuldur.

Tədbirdə, həmçinin mövcud nöqsanlardan və görüləcək işlərdən də danışılıb. Qeyd edilib ki, avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığortaya cəlb olunması məqsədilə qanunun verdiyi səlahiyyətlərdən tam istifadə edilməlidir.

Sonda sığorta işinin aparılmasında fərqlənmiş Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin 15 əməkdaşına pul mükafatları verilib.

**✍ Əli CABBAROV**

### *İtmişdir*

Əliyev Zaur Yusif oğlunun adına Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialı tərəfindən verilmiş BC №-000195 seriya nömrəli diplomun əlavəsi (içlik) itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 258